Screening-Labor Hannover

Postfach 91 10 09
30430 Hannover
Internet: https://metabscreen.de
E-Mail: labor@metabscreen.de

Elterninformation aserbaidschanisch

# Yeni doğulmuş körpələrin skrininqi - körpənizin sağlamlığı üçün

## Bütün yeni doğulmuş körpələr üçün şans

Uşaqlar üçün təklif olunan profilaktik müayinələrdən istifadə edin. Bu müayinələr anadangəlmə xəstəlikləri erkən mərhələlərdə diaqnoz etməyə və vaxtında müalicəyə başlamağa imkan verir.

## Maddələr mübadiləsi, qan sistemi, endokrin sistemi, immun sistemi və sinir-əzələ sisteminin anadangəlmə pozğunluqlarının aşkarlanması üçün skrininq

Bütün pozğunluqlar müalicə edilə bilər. Orta hesabla bu cür xəstəliklərdən biri təxminən hər 900 yeni doğulmuş körpədən birində diaqnoz edilir. Bu cür pozğunluqları olan uşaqlar doğulduqda tamamilə sağlam görünə biləcəyi üçün, skrininq onların erkən aşkarlanması üçün vacibdir. Skrininqdə iştirak könüllüdür. Skrininq zamanı diaqnoz edilən xəstəliklər haqqında daha ətraflı məlumatı valideynlər üçün alman dilində məlumat vərəqəsində tapa bilərsiniz.

## Erkən diaqnoz həlledici əhəmiyyətə malikdir

Skrininq proqramı bu nadir xəstəliklərdən birinə malik ola biləcək az sayda körpəni aşkar etməyə imkan verir. Erkən diaqnoz və müalicə adətən zehni və ya fiziki qüsurların və ya hətta körpənin ölümünün qarşısını almağa imkan verir.

## Bir neçə damla qan kifayətdir

Bütün bu testləri aparmaq üçün körpədən bir neçə damla qan götürmək lazımdır. Testin aparılması üçün optimal vaxt körpənin həyatının ilk 36-48 saatıdır. Hər halda, onu körpəni xəstəxanadan evə aparmazdan əvvəl aparmaq lazımdır. Test blankının analizi laboratoriyada xüsusi, çox həssas metodlarla aparılır.

## Xəbərsiz olmaq ən yaxşı xəbərdir

Əgər skrininq nəticəsində körpədə pozğunluqlar aşkar edilərsə, valideynlər dərhal bu barədə məlumatlandırılacaq. Əgər körpə sağlamdırsa və heç bir pozğunluq yoxdursa, nəticələr yalnız xəstəxanaya və ya mamaçaya göndəriləcək. Nadir hallarda bir neçə damla qan yenidən götürülə bilər. Bu, körpədə bir şeyin səhv olduğunu göstərmir, sadəcə analiz dəqiq nəticə verməyib.

## Terapiya

Aşkarlanan pozğunluqların müalicəsi, məsələn, xüsusi pəhriz və/və ya dərman qəbulunu əhatə edir. Erkən diaqnoz və vaxtında başlanan müalicə adətən kiçik xəstələrin normal inkişaf etməsinə imkan verir.

## Məlumat vasitəsilə etibar

Testlə bağlı əlavə suallarınız varsa, həkiminizə, mamaçanıza və ya skrininq laboratoriyasına müraciət edin. Onlar sizə ətraflı məsləhət verməkdən məmnun olacaqlar.

## RAZIŞMA

Yeni doğulmuş körpənin skrininq müayinəsinin aparılmasına razılıq valideynlər üçün alman dilində məlumat vərəqəsində imza ilə təsdiq edilə bilər.

**Postfach:**
PF 91 10 09
30430 Hannover

**Adresse:**
Am Steinweg 11A
30173 Hannover

**Telefon:** (+49) 05108-92163-0
**Fax:** (+49) 05108-92163-19
**Internet:** https://metabscreen.de
**E-Mail:** labor@metabscreen.de

**Bankverbindung:**
apoBank Hannover
IBAN: DE88 3006 0601 0706 561
BIC: DAEDDEXXX